# DSX ilə Türkiyə Silahlı Qüvvələri arasında əməkdaşlığın perspektivləri nəzərdən keçirilmişdir





2018-ci ilin noyabr ayının 20-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Türkiyə Respublikasının Silahlı Qüvvələri arasında ikitərəfli əlaqələrin vəziyyəti yüksək qiymətləndirilmiş və əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır. General-polkovnik Elçin Quliyev Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin qurulmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi qeyd etmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin inkişafına ciddi önəm verərək həyata keçirdiyi dövlət siyasəti sayəsində qarşılıqlı əlaqələrin ən yüksək səviyyədə olmasını vurğulamışdır.

Söhbət əsnasında ölkəmizin dövlət sərhədindəki mövcud əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə olan təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ərazimizin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərdən qeyri-qanuni məqsədlərlə istifadə hallarının davam etdirilməsi qeyd olunmuşdur. Bununla yanaşı, qeyri-leqal miqrasiya, qaçaqmalçılıq, narkotiklərin daşınması və digər transsərhəd cinayətkarlıq fəaliyyətləri ilə mübarizədə həyata keçirilmiş tədbirlər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və qazanılmış nailiyyətlər barədə məlumat verilmişdir.

Tərəflər arasında sərhəd mühafizəsinin möhkəmləndirilməsi, təcrübə və məlumat mübadiləsinin aparılması, birgə təlimlərin təşkili, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və digər maraq doğuran məsələlər barəsində müzakirələr aparılmışdır.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral da iştirak etmişdir.

Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 22 noyabr.- S.9.